***Rəna NƏCƏFOVA****

# ŞAH I ABBASIN HƏRBİ İSLAHATI

**Açar sözlər:** Səfəvi dövləti, Şah I Abbas, qulamlar, odlu silah
**Key words:** Safavid state, Shah I Abbas, The ghulam, Firearms
**Ключевые слова:** Государство Сефевидов, Шах I Аббас, гуламы, Огнестрельное оружие

Şah I İsmayıl tərəfindən Səfəvilər dövlətinin əsası qoyulduqdan sonra ölkənin daxili və xarici vəziyyəti güclü orduya ehtiyac olduğu zərurətini meydana çıxartdı. Odur ki, Şah I İsmayıldan başlayaraq Səfəvi şahları, xüsusilə Şah I Təhmasib və Şah I Abbas ordu quruculuğu məsələlərinə böyük diqqət yetirmişlər. Məhz güclü ordu sayəsində Səfəvilər dövləti özünün Şərqdə Şeybanilər və Qərbdə isə Osmanlılar kimi qüdrətli rəqibləri ilə uzun sürən müharibələr zamanı davam gətirə bilmiş, hətta bir sıra hallarda da rəqibləri qarşısında üstünlüyə malik olmuşdur.

Səfəvi şahları I Təhmasib və I Abbas ordu quruculuğuna çox böyük diqqət yetirmişlər. Məhz onların hakimiyyəti dövründə ordu quruculuğu dövlətin daxili və xarici siyasətində əsas məsələyə çevrilmiş, onun özəyini təşkil etmişdir. Onların hakimiyyəti dövründə Avropa ölkələri ilə danışıqlara göndərilən elçilərin qarşısında duran əsas vəzifə zahirən iqtisadi-ticarət əlaqələri olsa da, əslində hərbi əməkdaşlığa nail olmaq başlıca vəzifə idi.

Mənbələrdə olan məlumatlara görə ordu quruculuğu baxımından Şah I Abbasa qədər Səfəvi imperiyası özünün güclü rəqibi olan Osmanlılardan geri qalırdı. Bununla belə, Səfəvi ordusu bu məsələdə Şeybanilərdən daha üstün idi. Odur ki, Səfəvilər Osmanlılarla müharibələrdə daha çox məğlubiyyətə uğradıqları halda, Şeybanilərlə müharibələrdə, əksinə daha çox qələbələr qazanmışlar.

Səfəvilər dövlətinin hərb tarixi araşdırılarkən məlum olur ki, ordunun tərkibi heç də həmişə yekcins olmamışdır.O dövrdə baş vermiş hadisələr nəticəsində və dövrün tələblərinə görə yeni tipli qoşun növləri təşkil olunmuş və müxtəlif dövrlərdə onların döyüş qabiliyyəti təkmilləş-

* **Nəcəfova Rəna** - Azərbaycan Milli Elmlər Akademiyası, Abbasqulu Ağa Bakıxanov adına Tarix İnstitutunun kiçik elmi işçisi



02

dirilmişdir. Tarixi mənbələrin bir-birindən fərqli, bəzən ziddiyyətli məlumatlarından görünür ki, Səfəvilər dövlətində ordunun təşkili, qoşun növləri, onun say tərkibi, ordunun idarə olunması, döyüş taktikası və s. kimi məsələlər haqqında qəti fikir söyləmək çətindir. Bununla belə, bu mənbələrin materialları ordu quruculuğu məsələləri ilə bağlı sistemləşdirmə aparmağa və bir sıra fikirlər söyləməyə imkan verir. Mənbələrin məluma-tına əsasən Şah I Abbas dövründə Səfəvilərin ordu sistemi aşağıdakı kimi idi:

*Süvarilər; Piyadalar* (4, s.248-249).

Süvarilərə aşağıdakı hissələr daxil idi: *Qızılbaşlar; Qulamlar; Qorçular.*

Şah I Abbas öz hakimiyyətini möhkəmləndirmək üçün bir sıra islahatlar keçirmişdir. Onun atdığı ilk addımlardan biri orduda köhnə sistemin ləğvi və yeni qaydaların yaradılması idi. Şah I Abbasın həyata keçirdiyi islahatlar nəticəsində yeni qoşun növləri yaradıldı, ordu odlu silahlarla, o cümlədən topla təchiz olunmuşdur. Bununla yanaşı yeni hərbi ünvanlar və vəzifələr yaradıldı (9, s.14). Lakin bütün bunlara baxmayaraq tam əminliklə demək olar ki, yenə də orduda əsas qüvvə etnik məsələ baxımından qızılbaşlar olmuş və onların bütün həyatı dövründə də belə olaraq davam etmişdir. Lakin Şah I Abbasın dövründə qızılbaşlar çox yaxşı bilirdilər ki, bu döyüşlərdə [illegible]



Bununla yanaşı, Səfəvi ordusunda qeyri-müsəlman şəxslərin yaxud Səfəvi dövlətinin ərazisində yaşayan digər qeyri-türk xalqların və azlıqların nümayəndələrindən istifadə edilməyə başladı. Çərkəslər, gürcülər, tatarlar və taciklər orduya cəlb edilməyə başlandı. Hətta osmanlılar üzərində ilk qələbələrdən sonra əsir götürülmüş osmanlı mühəndisləri və topçuları da orduya qəbul olunurdu.

Digər tərəfdən, yeni ordunun təşkilində keçmişdən miras qalmış ənənəvi daxili çərçivələrdən çıxaraq, Qərbi Avropa ölkələrinin təcrübəsindən və onların köməyindən istifadə etməyə başlandı.

Yeni ordunun təşkili Şah I Abbasa daxili və xarici siyasət sahəsində qarşıda duran 3 mühüm vəzifəni həyata keçirməyə imkan verirdi. Bunlar aşağıdakılardan ibarətdir:

Ölkə daxilində şahın hakimiyyətini möhkəmləndirmək, əmin-amanlığı bərpa etmək və xalq arasında dövlətə inamı artırmaq;

İtirilmiş torpaqları 3 qüdrətli rəqibdən - Osmanlılardan, Şeybanilərdən, Portuqaliyalılardan geri almaq;

Yeni ərazilər ələ keçirmək və dövlətin sərhədlərini genişləndirmək (7, s. 269).

Şah I Abbasın ordusu həyata keçirilən islahatlardan sonra yuxarıda qeyd olunan vəzifələri yerinə yetirmək üçün hər bir dövlətin ordusundan

**Qorçular**

Səfəvilər ordusunun xüsusi qvardiya hissələri *qorçular* adlanırdı. Səfəvilər dövlətində qorçular dəstəsinin nə vaxtdan mövcud olması haqda qəti fikir söyləmək çətindir. Belə ki, tarixi mənbələrdə hətta Şah I İsmayılın dövründə də qorçular anlayışına rast gəlirik (6, s.103). Səfəvi ordusunda qorçu adı ilə bağlı ilk məlumat 1505-ci ilə təsadüf edir (11, s.101).

Səfəvilər dövlətində qorçuların hərbi süvariləri ayrıca bir dəstə kimi yaradılması Şah I Təhmasibin hakimiyyətinin ortalarına təsadüf edir. Belə ki,Şah I Təhmasib öz hakimiyyətini möhkəmləndirdikdən sonra xüsusi dəstələr yaratmaq qərarına gəlmişdi. Dəstənin üzvlərinin sayı təxminən 5 min nəfərə çatırdı. Az sonra həmin dəstələrə "qorçu" dəstələri deyilməyə başlanmışdı. Qorçular dəstəsiyeni kiçik bir qoşunun əsasını təşkil edirdilər. Bununla da qızılbaşlardan ayrıca olaraq, Səfəvi ordusunda yeni bir qoşun növünün əsası qoyulmuşdur. Digər tərəfdən, bu məsələ Səfəvilər dövlətində nizami ordunun əsasının qoyulmasında ilk addım idi. Bu dəstələr sonralar Şah I Təhmasib və Şah I Abbasın zamanında təkmilləşmiş və tamamlanmışdı. Qorçular müharibə zamanı çox vaxt ehtiyyatda qalır, yalnız ən çətin zamanda onlar da döyüşə girirdilər (5, s.64). Qorçular aşağıdakı qruplara ayrılırdılar (5, s.64):

*Ox və kaman qorçuları; Qılınc qorçuları; Hərəm qorçuları; Şah rikabdarlarının qorçuları*; *Daş qorçuları* (10, s. 2000).

Qorçu dəstələri həm mühafizə, həm də döyüş üçün təşkil olunmuşdular və ən təhlükəli anlarda onlardan istifadə olunurdu.

Şahın sarayında hərbiçilərin bir çoxu müxtəlif vəzifələr daşıyırdılar. "Dünyanı bəzəyən Abbasın tarixi" əsərində yazılır ki, yüzbaşılar, mənsəb [redacted]



J. Şardenin verdiyi məlumat həqiqətə uyğun deyildir. Belə ki, o qorçuların sayının 30 min nəfər olduğunu göstərir (12, s.298).

**Qulamlar**

Orduda hərbi süvarilərin 2-ci böyük dəstəsini qulamlar təşkil edirdi. Səfəvi ordusunda qulamlar dəstələri Şah I Abbasın həyata keçirdiyi islahatlar nəticəsində yaranmış yeni qoşun dəstəsi idi.

Şah I Abbas hakimiyyətə gələrkən Səfəvilər dövləti müasir mənada nizami orduya malik deyildi. Bu isə bir sıra qüsurlara gətirib çıxarırdı. Şah I Abbasa qədər Səfəvi ordusu müxtəlif qızılbaş tayfalarından ibarət idi və hər tayfa öz əhalisinin sayına uyğun olaraq, orduya döyüşçü göndərirdi. Bu isə orduda bir sıra mənfi hallara gətirib çıxarırdı. Belə ki, bəzi qızılbaş tayfaları arasındakı münasibətlər ordunun hərbi intizamına mənfi təsir göstərirdi. Qeyd edilən vəziyyətdə hər hansı bir tayfanın döyüşçüləri digərindən çox olan zaman onların arsında ixtilaflar yaranırdı. Bu isə orduda intizam baxımından ağır nəticələrə gətirib çıxarırdı. Bu məsələ II İsmayılın və Məhəmməd Xudabəndənin hakimiyyətləri dövründə özünü xüsusilə biruzə vermişdir.

Şah I Abbas artıq öz ordusundakı bütün nöqsanlardan xəbərdar idi və hakimiyyətinin ilk günlərindən yeni nizami ordu yaradılması zərurətini dərk edirdi. Çünki mövcud ordu nə ölkə daxilində şah hakimiyyətinin möhkəmliyinə, nə də itirilmiş torpaqların geri qaytarılmasına və sərhədlərin toxunulmazlığına təminat verə bilməzdi. Onun öz tərəfdarları arasından seçdiyi ilk hərbi dəstələri ümumi adla "şahsevənlər" adlanırdı. Lakin bunun ardınca Şah I Abbas daha qətiyyətli addımlar ataraq, dövrün tələblərinə uyğun yeni nizami ordu yarada bildi. Şah I Abbasın apardığı islahatlar nəticəsində əsasən 3 yeni hərbi qoşun növü yaradılmışdır: [redacted]

sahlarına göndərirdilər. Eyni zamanda, bu [redacted]

bəziləri də ox-kaman, qılınc və təbərzinlə silahlanırdılar. [redacted]

hakim olduğu diqqəti çəkir. Bu sahədə yazmış İran tarixçiləri Ə. Tahiri və X. Bəyani də bu fikrin tərəfdarlarıdır (13, s.155-157, 3, s.70-71).

Beləliklə, Şerli qardaşları 1598-ci ildə Qəzvində şahın hüzuruna gəlmişlər. Onların başçılıq etdiyi nümayəndə heyəti 25 nəfərdən ibarət idi. Bəzən onların sayının 26 nəfər olduğu göstərilir. Bu zaman şah özbəklərlə müharibədən qələbə ilə qayıtmışdı. Lakin müharibə hələ də başa çatmamışdı (1, s.120). Şah bu adamları özü ilə birlikdə yeni paytaxta - İsfahana aparmışdı (11, s.302). Antoni Şerli 4 ay sonra Şah I Abbas tərəfindən verilmiş məktubla birlikdə Avropa ölkələrinə göndərmişdir. Lakin A. Şerlinin bu səfəri uğursuz olmuşdur. 10 il sonra A. Şerlinin qardaşı R. Şerli nümayəndə kimi Avropaya göndərilir (11, s. 302-305; 7, s. 291). Digər tərəfdən, artıq onların gəlişinə qədər özbəklərlə döyüşdə top və tüfənglərdən istifadə edilmişdir.

Antoni Şerlini özü bildirmişdir ki, 1598-ci ildə özbəklərlə müharibədə iştirak edən 30 min döyüşçünün arasında 12 min şamxal (tüfəng növü) atan var idi. Onların tüfəngləri bizim tüfənglərdən yarım fut uzundur... Döyüşçülər ondan diqqət və bacarıqla istifadə edirlər (11, s. 307).

Beləliklə A. Şerli və onun yoldaşlarının məlumatları "Səfəvilər odlu silahı Şerli qardaşlarından öyrənmişdir iddiasını rədd edir"(11, s. 308).

Şah I Abbas öz nümayəndələrini Avropa ölkələrinə göndərəndə onlardan odlu silah almaqlarını da istəyirdi. Buna misal olaraq 1603-cü ildə heyətlə göndərdiyi məktubunda Venesiya dojundan xahiş edirdi ki, Səfəvi sarayı üçün odlu silah və arkebuz almağa onlara köməklik etsin (7,s. 273).

Lakin bütün yuxarıda deyilənlərə baxmayaraq, tüfəngçilərdən ibarət nizami dəstələrin tam təşkili Şah I Abbasın adı ilə bağlıdır. İsgəndər bəy Münşi yazır ki," tüfəngçilər, cağatay oymaqlarından, ərəb qəbilələrindən, Xorasan əcəmlərindən, Azərbaycan və Təbəristandan seçilirdi" (10, s.1106). Sonralar tüfəngçilər arasında elə tayfalara rast gəlinirdi ki, onlar əvvəl qızılbaş tayfalarından hesab olunmurdu. Məsələn Sultan Hüseynin dövründə Əlvar (Lorlar) tüfəngçilərindən danışılır (3, s. 93).

Tüfəngçilər öz məvacib və mükafatlarını birbaşa saraydan alırdı. Tüfəngçilər əsasən piyada şəkildə vuruşurdular. Lakin Şah I Abbas yeni-yeni qələbələr qazandıqca və tüfənçilərin bir döyüş bölgəsindən digər döyüş bölgəsinə daha tez daşınması zərurəti yarandıqda onlar atlardan istifadə etməyə məcbur oldular.





Müxtəlif mənbələrdə tüfəngçilərdən ibarət piyadaları igid, dözümlü və fədakar döyüşçülər kimi təqdim edilir və onların sayı 20 min nəfəri ötüb keçmişdi. Onların rəhbəri *"tüfənçilər ağası"* adlanırdı. Tüfəngçilər yalnız müharibə dövründə tam səfərbər edilirdilər. Sülh zamanı onlar əyalət hakimlərinin yanında qalırdılar. Onlar bir başa həmin əyalətin hakiminə tabe olurdular. Qeyd edək ki, bir sıra hallarda xüsusi tüfəngçilər dəstələrinin əyalətlərdə qalması lazım olan yerlərdə şahın hakimiyyətini qorumaq və əyalət hakimlərinin hərbi qüdrətini azaltmaq məqsədi güdürdü. Xatırladaq ki, bəzi hallarda tüfəngçilərin qulamların siyahısına daxil edilməsinə də təsadüf olunur (10, s. 1106).

**Topçular**

Səfəvi ordusu ilk dövrlərdən başlayaraq odlu silahla, o cümlədən müəyyən qədər toplarla təchiz edilmişdi. Lakin xüsusi topxananın yaradılması və nizami topçular dəstəsinin qəti bərqərar olması Şah I Abbasın adı ilə bağlıdır. Qeyd etmək lazımdır ki, tüfəngçilər dəstəsi kimi *topçular* dəstəsinin də yaradılmasının Şerli qardaşları ilə əlaqələndirilməsi halları mövcuddur (3, s. 74;13, s. 215). Lakin şübhəsiz ki, bu fikir də yanlış hesab edilir. Çünki, Səfəvilərin topdan istifadə etməsi haqqında daha əvvəlki dövrlərə aid məlumatlar qeydə alınmışdır. Hər halda Səfəvilərin topla tanışlığı həm osmanlılardan, həm də osmanlılara qarşı Səfəvilərlə müttəfiq olmaq istəyən avropalılardan çox geridə qalırdı(11, s. 238).

Faktlar göstərir ki, Səfəvi ordusunda osmanlılara qarşı döyüşlərdə toplardan istifadə olunmuşdur (11, s. 298). Fars dilli qaynaqların bəziləri bu barədə az da olsa məlumat verirlər. Səfəvi toplarından ən çox osmanlıların sığındığı qalaların mühasirəsi zamanı istifadə olunmuşdur. Belə məlumatlardan biri 1528-ci ilə aiddir. Həmin ildə Damğanın mühasirəsi zamanı Səfəvi ordusunda topxananın başçısı vəzifəsini daşıyan şəxs qeydə alınmışdır. Aydın məsələdir ki, toplardan istifadə edilməyən orduda topçuların başçısından (burada hələ "topçubaşı" rütbəsi işlənmirdi) bəhs etmək olmazdı (11, s. 309).

1539-cu ildə ilk dəfə olaraq, artıq topçuların rəhbəri kimi "topçubaşı" vəzifəsinə rast gəlinir. Fərankeş adlanan toplardan istifadə edilməsinə 1551-ci il hadisələrində də rast gəlirik. Bu zaman yenə də Şirvanda digər toplar tətbiq olunmuşdur. Həmin toplar "badlic" adlanırdı (11, s. 309; 10, s. 1173).

Beləliklə, Səfəvi ordusunda Şerli qardaşlarına qədər toplardan istifadə edildiyi heç bir mübahisə doğurmur və Səfəvi topxanasının bir başa Şerli qardaşları ilə bağlanması heç cür mümkün deyil. Şerli qardaşlarının həmkarları da heç biri bunu iddia etməmişlər. Lakin onların Şah I Abbas tərəfindən qəbul edilməsindən sonra topxananın təkmilləşdirilməsində müəyyən rol oynadıqlarını da ehtimal etmək olar.

Şah I Abbasın gördüyü tədbirlərdən sonra isə topçular ayrıca bir qoşun növü şəklini aldı. Onların istifadə etdiyi toplar əsasən bürünc toplar idi. Bu dövrdə dövlət manufakturası rolunu oynayan "byutatlar" sırasında cəbbəxanaların da adı çəkilir (4, s. 235; 10, s. 163).

Qeyd edək ki,Şah I Abbas dövründə Səfəvi ordusunda topların sayı 500-ə yaxın idi. Topçuların sayı isə təxminən 4 min nəfər idi (3, s. 74; 7, s. 268). Bəzi mənbələrdə isə onların sayının 12 min nəfər olduğu yazılır. Toplara xidmət edənlərə "əmələ-ye topxane" və "topçubaşı" deyilirdi. Döyüş zamanı toplardan həmişə istifadə olunmurdu və çox vaxt ehtiyyatda saxlanırdı. Toplardan daha çox iki formada yəni döyüş zamanı düşmən sıralarını pərən-pərən salmaq və ikincisiisə qalaları almaq üçün istifadə olunurdu.

Şah I Abbas dövründə Səfəvilər dövlətinin ordusu özünün ən qüdrətli zamanını yaşayırdı. Lakin onun ölümündən sonra onun varisləri zamanı orduya diqqət zəiflədi və xüsusilə topçuluq sənətinə lazımi diqqət ayrılmadı. Artıq Şah I Səfinin zamanında (1629-1642) ordunun zəifləməsində ilk əlamətlər özünü biruzə verməyə başlamışdır. O, babasının uğurlarını davam etdirə bilmədi və Səfəvi ordusu osmanlılarla müharibədə üstünlüyü əldən verdi.

1639-cu ildə Qəsri-Şirin (Zəhab) sülh müqaviləsi ondan sonrakı illərdə Səfəvi-Osmanlı münasibətlərində təxminən 74 il davam edən sülh dövrünün əsasını qoydu. Bu müqavilənin bağlanması ilə dinc dövr başlasa da ordu döyüş qabiliyyətlərini itirmişdi və son nəticədə ordunun zəifləməsinə gətirib çıxarmışdır. Başqa sözlə Səfəvi şahları əsas rəqibləri olan osmanlılar tərəfindən təhdid edilən sərhədlərdən əmin olduqlarına görə ordunun Şah I Abbasın dövründəki kimi daim hazır olması qayğısına qalmadılar. Bu sülhdən sonrakı uzun müddətli dinc dövründə tədbirli əmirlər və döyüşkən əsgərlər sıradan çıxdı və ordunun hazırlıq qabiliyyəti zəiflədi. Bu zaman nəinki yeniliklər edilmədi, əksinə ordunun əvvəllər malik olduğu silahlara əhəmiyyət verilmədi. Bu dövrdə topxana daha çox zərər gördü. Çünki, istifadə edilmədiyi təqdirdə hər hansı bir təhlükəyə qarşı hazır saxlanmaq əvəzinə, yavaş-yavaş unudulmağa başlandı.





**Digər qoşun hissələri**

Səfəvi ordusunda yuxarıda sadaladığımız əsas dəstələrdən sonra *nəsəqçilər, sərhədçilər* və *dəniz qüvvələri* kimi bir sıra dəstələr də mövcud idi.

***Nəsəqçilər***: Haqqında bəhs edilən xüsusi qoşun növləri ilə yanaşı Səfəvi ordusunda müxtəlif dövrlərdə nisbətən xırda dəstələr də olmuşdur. Onlar müxtəlif məqsədlər üçün təşkil edilmişdilər. Belə dəstələrdən biri nəsəqçilər adlanırdı. Nəsəqçilər əslində ölkədə ordunun yerdəyişməsi, müharibə zonasına getməsi zamanı əmin-amanlığın qorunmasına nəzarət edir, yolların təhlükəsizliyini təmin edirdilər. Onların rəhbəri *"nəsəqçibaşı"* adlanırdı (3, s. 98).

***Sərhədçilər***: Səfəvilər dövlətində sərhəd qoruyucuları ordunun ayrıca olaraq xüsusi dəstəsi hesab olunurdular. Onların vəzifəsi yalnız sərhədlərin qorunmasını təmin etmək idi. Onlar ayrı-ayrı sərhəd məntəqələrində xidmət edirdilər (3, s. 78).

***Dəniz qüvvələri***: Səfəvilər dövləti dəniz qüvvələrini inkişaf etdirmək üçün zəruri olan təbii imkanlara malik idi. Belə ki, bir tərəfdən Xəzər dənizi, digər tərəfdən də Fars körfəzi ilə həmsərhəd idi və bu suların böyük hissəsi uzun müddət onların nəzarəti altında olmuşdur. Xəzər dənizi öz qüdrətinin artırmaqda olan Rusiyaya qarşı, Fars körfəzi isə Böyük coğrafi kəşflərdən sonra Hind okeanı hövzəsində, Ərəbistan dənizi və Fars körfəzinin özündə möhkəmlənməyə çalışan avropalılara qarşı müharibədə fövqəladə hərbi əhəmiyyətə malik idi. Aydın məsələdir ki, həm Xəzər dənizi, həm də Fars körfəzi eyni zamanda böyük iqtisadi-ticari əhəmiyyətə malik idi (3, s. 149).

Buna baxmayaraq Səfəvilər dövləti hərbi dəniz qüvvələri baxımından qüdrətli dövlət deyildi. Elə bunun nəticəsidir ki, Şah I İsmayılın dövründən başlayaraq portuqaliyalılar burada möhkəmlənə bilmişlər. Bunun əsas səbəblərindən biri bu idi ki, Səfəvilər portuqaliyalıların buradakı dəniz qüvvələrini sıxışdıra biləcək hərbi dəniz donanmasına malik deyildilər. Digər tərəfdən əsas diqqətlərini Osmanlılara və Özbəklərə qarşı yönətməyə məcbur olan Səfəvilər portuqaliyalılarla rəqabətə girməmiş,

əksinə onlardan istifadə etmək və onların köməyi ilə odlu silahlar əldə etməyə çalışırdılar.

Lakin, sonrakı tarixi hadisələr göstərdi ki, dövlətin hərbi dəniz qüvvələrinə böyük ehtiyac vardır. Bunu xüsusilə ölkə daxilində bir sıra islahatlar keçirən ordunu yenidən quran Şah I Abbas yaxşı başa düşürdü. Belə ki, özbəklərlə uzun müddətli müharibələri XVI əsrin sonunda bir dəfəlik Səfəvilərin xeyrinə həll edən və Osmanlılar üzərində bir sıra qələbələr qazanaraq 1578-1590-ci illərdə itirilmiş torpaqları geri alan şah artıq portuqaliyalıları Fars körfəzindəki adalardan və limanlardan çıxarmaq qərarına gəldi (3, s. 703; 7, s. 292).

Ümumiyyətlə, Şah I Abbasın ordu sistemində həyata keçirdiyi islahatlar güclü nizami ordunun yaradılmasına, odlu silahların əldə edil-məsinə və istehsalına, itrilmiş ərazilərin geri qaytarılmasına şərait yaratdı.

### Mənbələr və ədəbiyyat


1. Ağayev R., Azərbaycan və Mərkəzi Asiya dövlətlərinin qarşılıqlı münasibətləri (XV-XVI əsrlər), Bakı-2004
2. Bayramlı Z., Şabıyev B. Azərbaycan Səfəvi dövləti (XVI- XVII əsrlər), Bakı, 2017
3. Bəyani X. Tarix-i nizam-i İran (Dovre Səfəviyyə), İntişarat-ı Sitad-ı Bozorg-i Erteşaran, Tehran, h. 1335
4. Əfəndiyev O., Azərbaycan Səfəvilər Dövləti, Bakı, 2007
5. Fərzəlibəyli Ş., XV Əsr Azərbaycan Dövlətlərinin Quruluşu, Bakı, 2003
6. Həsənəliyev Z., XVII əsrdə Səfəvi dövlətinin beynəlxalq əlaqələri, Bakı, 2007
7. Mahmudov Y., Azərbaycan Diplomatiyası, Bakı, 2006
8. Minorsky V., Tadhkirat al-muluk, A manual of Safavid adminstration (circa1137/ 1725), London, 1980
9. Musalı N., Şah İsmail'in İdarî-Askerî ve İctimaî-İktisadî Politikaları Üzerine Bazı Notlar ve Değerlendirmeler, Akademik Tarih ve Düşünce Dergisi, 2018, 5(14)
10. Münşi İ. B. Dünyanı Bəzəyən Abbasın Tarixi. Fars dilindən çevirən: t. e. d. prof. Şahin Fərzəliyev, I Kitab, Bakı, 2010
11. Savory M. R., Studies on the history of Safawid Iran, Variorum Reprints, London 1987
12. Şarden, Səfərnameyi- Şarden, tərcümə: İqbal Yəqməi, Tehran, h. 1374
13. Tahiri Ə., Tarixi- Siyasi İctimai İran, London, h. 1347






## SHAH I ABBAS'S MILITARY REFORM

### SUMMARY

Shah Abbas came to power and paid special attention to the army. As a result, in addition to the guards in the army, he has created new artillery and rifle bands. Thanks to the powerful army, the Safavid State has carried out long wars with its powerful opponents such as the Sheikhids in the East and the Ottomans in the West. Even in a number of situations, he had an advantage over rivals. Meanwhile, Shah I Abbas took back the Gulf of Hormuz from the Portuguese.

## ВОЕННАЯ РЕФОРМА ШАХА АББАСА I

### РЕЗЮМЕ

После прихода к власти сефевидский Шах Аббас I обратил особое внимание на армию. В результате, помимо охранных войск, он создал новые артиллерийские и стрелковые отряды. Благодаря мощной армии государство Сефевидов вела длительные войны со своими могущественными противниками, такими как Шейбаниды на востоке и Османы на западе. По некоторым параметрам армия сефевидов превосходила своих соперников.